

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*


**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 50 (23.462)

*13 mart 2020-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni layihələr muxtar respublika iqtisadiyyatına öz töhfəsini verəcək



*Mövcud inkişafın dayanıqlılığını təmin etmək yalnız elmi əsaslara söykənən düzgün iqtisadi siyasət nəticəsində mümkündür. Belə bir şəraitdə ölkəmizlə quru yolu ilə birbaşa əlaqəsi olmayan, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının daxili resurslar hesabına yüksəlişini inamla davam etdirməsi, yeni-yeni nailiyyətlərə imza atması müstəqil Azərbaycan dövlətinin ən böyük uğurlarından biridir. Bütün bunların başlıca səbəbi ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının muxtar respublikada uğurla davam etdirilməsidir. Faktlara nəzər yetirdikdə əminlik yaranır ki, muxtar respublikada mövcud olan ictimai-siyasi sabitliyin fonunda davam etdirilən bu siyasət daha böyük uğurlara yol açmaqdadır.*

Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir innovativ müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib. Bu gün çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində məqsədyönlü islahatların aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qorumaqdadır. Muxtar respublikada əldə edilən uğurları bir çox faktlarla təsdiq etmək mümkündür ki, onlardan biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club" tərəfindən ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqinin müəyyənləşməsi nəticəsində Naxçıvan Muxtar Respublikasının 2017 və 2018-ci illərdə 18 parametr üzrə ən yüksək bal toplayaraq lider olmasıdır.

Məlum olduğu kimi, bu yaxınlarda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə rəsmi səfəri çərçivəsində birgə strateji tərəfdaşlığa əsaslanan dövlət sənədlərinin imzalanması, xüsusilə Naxçıvan Muxtar Respublikasının gələcək sosial-iqtisadi inkişafı baxımından Qars-İqdır-Naxçıvan dəmir yolu xəttinin və İqdır-Naxçıvan qaz xəttinin çəkilişi mühüm əhəmiyyət kəsb edir. Bu cür tarixi və mühüm sövdələşmə Naxçıvanın enerji və nəqliyyat potensialının artmasına, eləcə də alternativ enerji ehtiyatlarından istifadəsinə yeni imkanlar açır. Bu o deməkdir ki, Naxçıvanda istehsal edilən rəqabətqabiliyyətli məhsullar dəmir yolu vasitəsilə daha böyük bazarlara ixrac olunacaq. Eyni zamanda Qars-İqdır-Naxçıvan dəmir yolunun fəaliyyətə başlaması ilə Naxçıvanın mövcud turizm potensialı da artacaq ki, bu da, öz növbəsində, muxtar respublika iqtisadiyyatına əlavə gəlir gətirəcək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci il 6 fevral tarixli Sərəncamı ilə 2020-ci ilin Naxçıvan Muxtar Respublikasında "İxrac ili" elan edilməsi də məhz müxtəlif sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının istehsal etdiyi məhsulların xarici bazarlara çıxarılmasına böyük stimul yaradır. Bu da muxtar respublikada sahibkarlığın inkişafına yönəlmiş mühüm tədbirlərin davamı kimi diqqət çəkir. Sosial-iqtisadi inkişafa statistik rəqəmlərlə nəzər saldıqda görürük ki, 2019-cu ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 497 milyon 68 min 600 ABŞ dolları təşkil edib. Bu dövriyyənin 425 milyon 539 min 400 ABŞ dollarını ixrac, 71 milyon 529 min 200 ABŞ dollarını idxal təşkil edib və 354 milyon 10 min 200 ABŞ dolları dəyərində müsbət saldo yaranıb. Eyni zamanda muxtar respublikada 2020-ci ilin yanvar ayında 173 milyon 71 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur. Adambaşına düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artaraq 376,4 manat olub. Qeyd edək ki, bu göstəricilər muxtar respublikada makroiqtisadi sabitliyin, davamlı və dayanıqlı iqtisadi inkişafın təmin olunmasını bir daha göstərir.

Əminliklə deyə bilərik ki, bu gün muxtar respublika iqtisadiyyatı davamlı inkişaf yolundadır. Əlverişli investisiya mühitinin yaradılması, sahibkarlığa göstərilən dövlət dəstəyi bu inkişafı daha da sürətləndirir. Bu yaxınlarda Türkiyə Respublikası ilə imzalanmış sənədlər isə yaxın gələcəkdə muxtar respublika iqtisadiyyatına yeni töhfələr verəcək.


**Nihad MEHBALIYEV**
***Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müəllimi***


## Dövlət qulluğu haqqında qanunvericiliyin tələbləri diqqət mərkəzində saxlanılır

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya fəaliyyətində peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirləri fevral ayında da davam etdirmişdir. Ay ərzində dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilmiş, 2 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 2 qərarı ləğv edilmişdir.

Fevral ayında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən vergi orqanlarında işə qəbul üçün təşkil olunmuş hazırlıq kurslarında 46 nəfər iştirak etmişdir. Komissiya tərəfindən dövlət orqanlarında vakant mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün esse imtahanı keçirilmişdir. İmtahanda iştirak etmiş 2 nəfər uğur qazanmışdır.

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 18 sentyabr 2019-cu il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsinə 20 fevral 2020-ci il tarixdən start verilmişdir.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin birgə fəaliyyət planına uyğun olaraq 19 fevral 2020-ci il tarixdə mülki müdafiə, fövqəladə hallardan qorunma və yanğın təhlükəsizliyi məsələləri ilə bağlı maarifləndirici tədbir keçirilmişdir.

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş 2 daxili müsahibədə Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşlarının nümayəndə qismində iştirakları təmin edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində və ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin sənəd qəbulu aparılmışdır.


***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***


## Ötən ay 571 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb

***Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan səmərəli istifadəyə nəzarət Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən 2020-ci ilin fevral ayında da diqqətdə saxlanılmışdır.***

Torpaqların elektron uçotunun aparılması məqsədilə Şahbuz şəhərində planaalma işləri başa çatdırılmış, Şahbuz rayonunun Mahmudoba və Daylaqlı, Sədərək rayonunun Sədərək kəndlərində planaalma işləri davam etdirilmişdir. Fevral ayında 1076 daşınmaz əmlak obyekti plana alınmışdır. 23 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

Naxçıvan Muxtar Respublikasında ümumi və suvarılan torpaqların torpaq mülkiyyətçiləri, istifadəçiləri arasında bölüşdürülməsi və torpaqlardan istifadə edilməsinə dair 1 yanvar 2020-ci il tarixə torpaq balansı tərtib edilərək Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli Qərarı ilə təsdiq edilmişdir.



Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Babək rayonunun Payız və Gülşənabad kəndlərində monitorinqlər aparılmış, aşkar olunan nöqsanların aradan qaldırılması istiqamətində işlər davam etdirilmişdir. Babək qəsəbəsində və Cəhri kəndində monitorinqlərə başlanılmışdır.

Culfa və Kəngərli rayonlarında ailə təsərrüfatları, torpaq mülkiyyətçiləri, icarəçiləri və istifadəçiləri ilə görüşlər keçirilmiş, əkin atlaslarına uyğun olaraq əkinlərin keçirilməsi, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi ilə bağlı maarifləndirmə işi aparılmışdır.

Fevral ayında 571 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 458 texniki sənəd hazırlanmış, yeni yaranmış 20 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 112 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 60 vətəndaşın müraciətinə baxılmış, 67 vətəndaşa elektron xidmətlər göstərilmişdir.

Naxçıvan Dövlət Universitetinin hamiliyə verilmiş Torpaqşünaslıq və aqrokimya, Geodeziya və xəritəçəkmə ixtisaslarında təhsil alan tələbələrə iki gün müddətində çöl geodeziya ölçü işlərinin aparılması ilə bağlı praktik məşğələ keçirilmişdir.


***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***


## Yeni lavaş sexi fəaliyyətə başlayıb

Sədərək rayonunda taxılçılığa maraq ilbəil artır, hər il bol məhsul istehsal olunur. Həmçinin rayonda tədarük olunan taxılın qəbulu və emalı üçün də ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən "Sədərək" Taxıl Məhsulları Emalı Müəssisəsi də öz fəaliyyəti ilə rayonda taxılçılığın inkişafına xidmət edir. Gündəlik istehsal gücü 10 ton olan müəssisə emal bölməsindən, 2 anbardan və 3 iş otağından ibarətdir. Cari ilin əvvəlində emal müəssisəsində fəaliyyəti təkmilləşdirmək və istehsal olunan məhsulun keyfiyyətini artırmaq üçün Türkiyə istehsalı olan yeni avadanlıqlar quraşdırılıb. Hazırda burada birinci və ikinci növ un,



o cümlədən kəpək istehsal olunur. Müəssisənin xidmətindən Sədərəklə yanaşı, Şərur rayonunun yaxın kəndlərinin taxıl istehsalçıları da istifadə edirlər.

Bu günlərdə "Sədərək" Taxıl Məhsulları Emalı Müəssisəsində müasir qurğularla təchiz edilmiş və günün tələbləri səviyyəsində qurulan lavaş sexi istifadəyə verilib. Gündəlik 20 kisə istehsal gücünə malik sexdə, işçilər üçün hərtərəfli əmək şəraiti yaradılıb, bütün zəruri texniki avadanlıqlar quraşdırılıb. Eyni zamanda müəssisənin ətrafında səliqə-sahman yaradılıb, yeni meyvə tingləri əkilib. Qeyd edək ki, yeni istifadəyə verilən sexdə 4 nəfər işlə təmin edilib.

Bununla bağlı keçirilən tədbirdə çıxış edən Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov bildirib ki, muxtar respublikada geniş vüsət alan tikinti-quruculuq işləri bu rayonu da əhatə edir, yeni emal müəssisələri və digər infrastruktur sahələri tikilərək istifadəyə verilir. İcra başçısı taxıl emalı müəssisəsinin və yeni açılan sexin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, yeni müəssisələrin açılması rayon əhalisinin məşğulluğunun təmin edilməsi baxımından da mühüm rol oynayır.

Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, muxtar respublikamızda həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində əmək resurslarından səmərəli istifadə edilməsi, əhalinin məşğulluğunun təmin olunması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlər görülür. Muxtar respublikanın əmək bazarı müntəzəm olaraq təhlil olunur və nəticələrə əsasən zəruri tədbirlər həyata keçirilir. Nazir qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Sonra Sədərək Rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov və sahibkar Fuad Qədimov çıxış edərək yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Çıxışlardan sonra tədbir iştirakçıları müəssisənin ərazisini gəzib, iş prosesi ilə tanış olublar.


***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*İnkişaf edən bölgələrimiz*

# Xoş növrağın mübarək, müasirləşən qədim Ordubad!

***Bölgəyə xas memarlıq ənənələrini saxlamaqla yenidən qurulan binalar, abad küçə və məhəllələr, rahat yollar, qoca çinarların ağuşuna aldığı gözoxşayan parklar Ordubadın yeni simasının reallıqlarıdır. Zəngəzur dağlarının qoynuna sığınan Ordubad indi ecazkar gözəllikləri ilə yanaşı, müasirliyi ilə də buraya üz tutan qonaqları özünə heyran edir. Qədim diyar bu gün muxtar respublikanın əsas mədəniyyət mərkəzlərindən biri olmaqla, həm də muzeylər, tarixi abidələr şəhəridir. Ordubadı addım-addım, qarış-qarış gəzdikcə möhtəşəm yeniliklərin, möcüzələr diyarının sehrkar aləminin bir daha şahidi olursan.***



Bütün bu gözəlliklərə rəvac verən bir çox amillər var. Ən əsası isə odur ki, son illər muxtar respublikada aparılan quruculuq tədbirlərindən Azərbaycanın incisi sayılan Ordubada da geniş pay düşüb. Bunu rayona yolu düşən hər bir kəs aydın görür. Ordubad şəhəri ilə yanaşı, rayonun kəndlərinin sosial mənzərəsində əsaslı dönüş yaradılıb, bütün sahələrdə uğurlar əldə olunub. Ötən 2019-cu ildə görülən işlər də Ordubadın inkişafının davam etdirilməsinə göstərilən qayğının daha bir nümunəsidir.

Ordubad Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, ötən il iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 59386,4 min manat və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 1,8 faiz artaraq 56288,3 min manat təşkil edib.

Qeyd edək ki, vəsait qoyuluşları hər bir sahənin dinamik inkişafını şərtləndirən mühüm amillərdəndir. Bu istiqamətdə rayonda infrastruktur quruculuğu tədbirləri çərçivəsində rayonun ən böyük yaşayış məntəqəsi olan Dəstədə kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, mərasim evi tikilib istifadəyə verilib, kənddaxili yollar asfaltlanıb, kommunikasiya xətləri yenilənib. Ordubad Rayon İcra Hakimiyyətinin və Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binaları əsaslı şəkildə təmir edilib, Anaqut kəndində yeni inşa edilən “Allahşükür məscidi” istifadəyə verilib. Bütün bunlar ordubadlıların firavan həyatına hesablanmış tədbirlərdir.

Hər bir cəmiyyətin inkişafı, ilk növbədə, onun təhsilindən asılıdır. Zəngin təhsil ənənələri olan Ordubadda hər il qəbul göstəricilərində yüksək nəticələr əldə edilir. Naxçıvanda davamlı xarakter alan məktəb tikintisi Ordubadda da geniş miqyasda həyata keçirilir. Tikilən və ya əsaslı təmir olunan müasir məktəb binaları, yaradılan lazımi şərait burada təhsil sahəsində ilbəil uğurlar qazanılması ilə nəticələnir. Ötən il də rayonda aparılan tikinti və yenidənqurma işlərinin mühüm hissəsini məktəb quruculuğu təşkil edib, Dəstə kəndində 900 şagird yerlik yeni məktəb binası tikilərək istifadəyə verilib.

Əhalinin sağlamlığı ən vacib məsələdir və bu istiqamətdə Ordubad rayonunda da hər il ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq sərəncamı ilə ötən il dekabrın 10-dan Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Bu məqsədlə Ordubad Rayon Mərkəzi Xəstəxanasına publik hüquqi şəxs statusu verilib. Xəstəxananın infrastrukturu yenilənib, Təcili tibbi yardım şöbəsi yenidən təşkil edilib, ilkin səhiyyə xidməti müasir tələblərə uyğun qurulub. Poliklinika şöbəsində, burun-qulaq-boğaz, oftalmoloji və stomatoloji kabinələrdə, Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsində, Laboratoriyada, Ginekoloji və doğuş bölməsində 50 adda yeni tibbi avadanlıq və ləvazimatlar quraşdırılıb, palatalar mərkəzi oksigen sistemi ilə təmin edilib. Xəstəxanada sürətli internet şəbəkəsi qurulub, mərkəzi server vasitəsilə “Səhiyyə informasiya idarəetmə sistemi” yaradılıb və icbari tibbi sığortanın tətbiqində iştirak edən digər tibb müəssisələri ilə qarşılıqlı əlaqə təmin olunub. Hazırda xəstələrin qeydiyyatı adıçəkilən sistem vasitəsilə həyata keçirilir.



Ordubad rayonu ənənəvi kənd təsərrüfatı bölgəsidir. Rayon əhalisi əsrlərboyu bu bölgədə formalaşmış aqrar ənənələri bu gün də davam etdirir, Ordubadın özünəməxsus məhsullarını yetişdirir, məhsul bolluğu ilə muxtar respublika iqtisadiyyatına öz töhfələrini verir. Əvvəlki illərdə olduğu kimi, ötən il də bu sahədə bir sıra uğurlara nail olunub. Qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrası 2019-cu ildə də kənd təsərrüfatında məhsuldarlığın artırılmasına müsbət təsir göstərib və aqrar sahənin davamlı inkişafı təmin olunub. Son illər “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə rayona ümumi dəyəri 989 min 442 manat olan 152 ədəd texnika gətirilib ki, bunun da 423 min 858 manatı ödənilib. Ötən il lizinq yolu ilə 14 ədəd texnika satılıb.



Kənd təsərrüfatına diqqət və qayğının, eləcə də rayon əhalisinin zəhmətsevərliyinin nəticəsi isə məhsul bolluğunda özünü təzahür etdirir. Belə ki, 2019-cu ildə rayonda 1972 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 5723 ton məhsul, o cümlədən 856 hektar sahədən 2448 ton buğda, 829 hektar sahədən 2337 ton arpa, 287 hektar sahədən 938 ton dənli-paxlalılar tədarük edilib. Məhsul bolluğu meyvə-tərəvəzçilik sahəsində də özünü göstərib. 578 hektardan 8538 ton kartof, 676 hektardan 5755 ton tərəvəz, 42 hektar sahədən isə 302 ton bostan məhsulları yığılıb. Bağlar diyarı kimi öz şöhrətini qoruyub saxlayan Ordubadda meyvə bağlarından 5616,5 ton, üzüm bağlarından isə 299 ton məhsul yığılıb. Torpaq mülkiyyətçiləri əldə olunan gəlirlərdən həvəslənərək bu ilin də məhsulu üçün səylə çalışırlar.

Ordubad rayonunda ekoloji tarazlığın qorunması hər zaman diqqət mərkəzində saxlanılır. Buna görədir ki, hər il rayonda yeni yaşıllıq zolaqları yaradılır, mövcud yaşıllıqlara aqrotexniki qulluq davam etdirilir. 2019-cu ildə də yaşıllaşdırma tədbirləri yüksək səviyyədə təşkil olunub, 13 min 957 meyvə, 3500 meşə, 520 həmişəyaşıl, 10 min 380 qızılgül və bəzək kolu olmaqla, cəmi 28 min 357 ting əkilib. İl ərzində 13,5 hektar sahədə yeni bağ salınıb, 14 hektar sahədə bərpa işləri aparılıb.

Ötən il görülmüş işlər əhalinin məşğulluq məsələlərinin həllinə də öz təsirini göstərib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası rayonda işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaradıb. Nəticə olaraq, ötən il rayon Məşğulluq Mərkəzinə 381 işaxtaran vətəndaş müraciət edib, onlardan 370-i müxtəlifxarakterli işlərlə təmin olunub, 33-ü haqqıödənilən ictimai işlərə cəlb edilib. Məşğulluq problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər sırasında özünüməşğulluq layihəsinin də uğurla davam etdirilməsi sosial qayğıya ehtiyacı olan əhali qrupunun güzəranına əhəmiyyətli dərəcədə təsir göstərir. 2019-cu ildə özünüməşğulluq proqramına 19 aztəminatlı ailə cəlb olunub, onlardan 15 ailəyə yanında balası olan 1 inək, 1 ailəyə yanında balası olan 10 baş qoyun, 1 ailəyə yabanı meyvə, giləmeyvə və bitkilərdən mürəbbə, şirələr və turşuların hazırlanması üçün xammal, 2 ailəyə



isə mini yerşumlayan aqreqat verilib. Həmin ailələr təsərrüfatlarını genişləndirmək üçün səylə çalışırlar. Belə təsərrüfatların fəaliyyətlərinin dəstəklənməsi əhalinin kənd təsərrüfatına olan marağının artmasını və maddi rifah halının daha da yaxşılaşdırılmasını təmin edir. Bunun nəticəsidir ki, hazırda rayonda 83 ailə təsərrüfatı fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasında “Ailə təsərrüfatları ili” elan olunan 2019-cu ildə rayonda 8 ailə təsərrüfatına 70 min 100 manat güzəştli şərtlərlə kreditlər verilib.

*Bir sözlə, qədim Ordubad bu gün öz inkişafının yeni mərhələsini yaşayır. Rayon öz tarixi simasını saxlamaqla gündən-günə abadlaşır, yeniləşir, müasirləşir. Nəticədə isə əhalinin həyat səviyyəsi yüksəlir. 2019-cu ildə həyata keçirilmiş tədbirlər bu ilin ilk aylarında da yeni uğurlara rəvac verməklə buna əminlik hissi yaradır ki, bütün sahələr üzrə görülmüş işlər Ordubad rayonunun davamlı və dinamik inkişafına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə bundan sonra da müsbət təsir göstərəcək. Xoş növrağın mübarək, müasirləşən qədim Ordubad!*

**✍ Gülcamal TAHİROVA**

# Muxtar respublikada kartofçuluq inkişaf etdirilir

*Son illərdə muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına nail olunub. Yerli sahibkarlığın inkişafına yaradılan şərait isə məşğulluq səviyyəsinin artırılmasını və ümumilikdə, muxtar respublika iqtisadiyyatının dinamik inkişafını təmin edib.*

Əkin sahələrinin genişləndirilməsi üçün təsərrüfat suyuna olan tələbatın ödənilməsi, qapalı suvarma şəbəkələrinin qurulması, torpaq mülkiyyətçilərinin güzəştli şərtlərlə kredit, texnika və avadanlıqlarla təmin olunması hesabına kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının aparıcı sahəsinə çevrilib. Artıq diyarımız bir çox kənd təsərrüfatı məhsulları ilə özünü tam təmin edir.

İkinci çörək sayılan kartofa olan tələbatın ödənilməsi məqsədilə görülən işlər də bu cəhətdən diqqəti çəkir. Stimullaşdırıcı təsirə malik olan tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, kartof əkini sahələri ildən-ilə genişləndirilir. Qeyd edək ki, illər öncə muxtar respublikamızda bu sahənin inkişafı üçün qəbul edilən dövlət proqramı uğurla yerinə yetirilib. Ötən dövrdə də kartofçuluqda yeni uğurlar qazanmaq üçün məqsədyönlü tədbirlər diqqət mərkəzində saxlanılır. Bunun nəticəsidir ki, ötən il muxtar respublikada 3228 hektar sahədə kartof əkini həyata keçirilib. Şərur rayonu üzrə 16 min 890, Babək rayonu üzrə 8818, Culfa rayonu üzrə 3045, Ordubad rayonu üzrə 8538, Şahbuz rayonu üzrə 7573, Kəngərli rayonu üzrə 3240, Sədərək rayonu üzrə 1628, Naxçıvan şəhəri üzrə 360 ton məhsul əldə olunub. Qeyd etmək lazımdır ki, muxtar respublikada əkin atlaslarının hazırlanması, əkiləcək torpaqların yararlılıq səviyyəsinin öyrənilməsi üçün hərtərəfli şərait yaradılması da bol məhsul istehsalına daha geniş imkanlar açıb. Şərur rayonunun Ələkli, İbadulla, Babək rayonunun Nehrəm, Ordubad rayonunun Üstüpü və digər



yaşayış məntəqələrində bu məhsulun istehsalına maraq getdikcə artır.

Kartof istehsalında başlıca diqqət yetirilən məsələlərdən biri də yüksək reproduksiyalı toxumlarla təchizat məsələsidir. Artıq bu da öz həllini tapıb. Muxtar respublikada yaradılmış toxumçuluq təsərrüfatları, ayrı-ayrı sahibkarlar keyfiyyətli toxum məhsulları ilə kartofçuluqla məşğul olanlara yaxından köməklik göstərir.

Məhsul bolluğunun yaradılmasında soyuducu anbarların istifadəyə verilməsinin də mühüm rolu var. Bu anbarlar bir tərəfdən məhsul satışı ilə bağlı meydana çıxan problemləri aradan qaldıraraq yerli istehsalla məşğul olmağa marağı artırırsa, digər tərəfdən əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatı üçün də geniş imkanlar yaradır. Artıq muxtar respublikada ümumi tutumu 15 min 940 ton olan 37 soyuducu anbar fəaliyyət göstərir. Kartof istehsalçıları da məhsulun saxlanılmasında və ilboyu daxili bazarı təmin etmək üçün soyuducu anbarlardan istifadə edirlər.

Bütün bunlar onu göstərir ki, kartof əhali üçün əsas ərzaq, istehsalçı üçün gəlir mənbəyidir. Artıq muxtar respublikada kənd təsərrüfatının bütün sahələrində, eləcə də kartofçuluq sahəsində ixtisaslaşmış təsərrüfat sahibləri fəaliyyət göstərir. Onlar kartof əkiləcək sahələrin hazırlanmasına və bu il də yüksək məhsuldarlığa nail olmağa çalışırlar.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan ərazisində təbii seolitin həm nəzəri, həm də praktik əhəmiyyətə malik böyük yataqları var

***AMEA Naxçıvan Bölməsinin hərtərəfli fəaliyyəti üçün yaradılmış iş şəraiti muxtar respublikanın yeraltı və yerüstü sərvətlərinin daha dərindən, sistemli şəkildə öyrənilməsini təmin edib. Son illərdə bölmənin elmi-tədqiqat institutlarında müxtəlif sahələr üzrə aparılan tədqiqatların bəhrələri xeyli artıb. Bu elmi qurumun Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədova da yaradılan şəraitdən səmərəli istifadə edən əməkdaşlardan biridir. O, 2004-cü ildən dünya elminin "XXI əsrin mineralı" adlandırdığı seolitlərin tətbiq sahələrini, onların alınma şəraitini, fiziki-kimyəvi xassələrini araşdırır. Tədqiqat obyekti Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri əsasında müxtəlif quruluş tipli seolitlərin sintezi, onların tətbiq sahələrinin müəyyənləşdirilməsidir.***



Onun söhbəti: – Hazırda 200-ə yaxın sintetik və 50 müxtəlif quruluşlu təbii seolit mövcuddur. Özünün geoloji quruluşu, kontinental iqlimi, zəngin flora və faunası ilə Azərbaycanın digər məkanlarından fərqlənən muxtar respublikamızın ərazisində həm praktik, həm də nəzəri əhəmiyyətə malik təbii seolitin böyük yataqları var. Seolit tərkibli süxurlar Ordubad rayonunun Məzrə kəndindən Şahbuz rayonunun Güney Qışlaq kəndi istiqamətinədək uzanır.

Günel Məmmədova ilə söhbətimiz zamanı məlumat verdi ki, yüksək adsorbsiya, ion-mübadilə və katalitik xassələri ilə təbii seolitlər sənayedə, kənd təsərrüfatında, ekologiyada və başqa sahələrdə geniş tətbiq oluna bilər.

O, müasir analiz metodlarından istifadə etməklə Naxçıvan Muxtar Respublikasının təbii mineralı – seolitin quruluşlarını, tərkibini, fiziki-kimyəvi xassələrini, təsnifat və nomenklaturasını, tətbiq sahələrini araşdırıb. Aparılan tədqiqatlarda təbii Naxçıvan seoliti əsasında müxtəlif quruluş tipli seolitlər və alümosilikatlar alınıb. Deyir ki, alınan yeni seolit növləri mühüm sənaye əhəmiyyətinə malikdir. Təsadüfi deyil ki, son illər təbii mineral seolitlər özünün maraqlı quruluş xüsusiyyətləri və spesifik xassələri ilə dünyanın bir çox ölkələrinin alim və tədqiqatçılarının da diqqətini cəlb edir.

Onu da qeyd edək ki, Günel Məmmədova tərəfindən tədqiq edilən nümunənin tərkibində toksik elementlərə rast gəlinmir. Bu isə təbii seolit nümunəsinin zərərsiz olduğunu göstərir və seolit süxurlarının bioloji aktiv əlavələr, tibbi preparatların komponenti, heyvandarlıqda yemə əlavələr kimi tətbiq sahələrində istifadəsinin mümkünlüyünə əsas verir.

Naxçıvanda seolitin torpaq strukturunun yaxşılaşdırılmasına, uduculuq qabiliyyətinə, meliorativ xüsusiyyətlərinə, həmçinin kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasına aid bir çox tədqiqatlar aparılıb, müsbət nəticələr alınıb. 2006-cı ildən AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Dənli taxıl, paxlalı və texniki bitkilər laboratoriyasında bu qiymətli mineral üzərində tarla təcrübələri aparılıb. Bu təcrübələrdə kartof bitkisinin, qarğıdalının, lobyanın, mərciməyin, noxudun, arpanın, yumşaq buğdanın 4 müxtəlif növünə aid 750 sort nümunələrdən istifadə olunub.

Naxçıvan seoliti tərəvəz bitkiləri üzərində də sınaqdan keçirilib. Bütün tarla təcrübələri muxtar respublikanın qədimdən suvarılan boz torpaqları şəraitində aparılıb. Nəticədə, 5-8 dəfə artıq məhsuldarlıq qeydə alınıb. Aparılan tədqiqatlarda müəyyən olunub ki, seolit mineralının tətbiqi nəticəsində tərəvəzlərdə, üzümdə, taxılda yüksək məhsuldarlıq əldə edilib və bu da böyük iqtisadi səmərə deməkdir.

Günel Məmmədova qeyri-ənənəvi xammal növləri arasında Naxçıvan Muxtar Respublikası Göycələr təzahürünün və Gilançay sahəsi üzrə seolitlərin xüsusi yer tutduğunu, zəngin ehtiyatları olan təbii seolitlərin neft-kimya proseslərində, sutəmizləyici qurğularda, kimya sənayesi istehsalında, tibdə, heyvandarlıq və quşçuluqda istifadəsinin səmərəliliyini qeyd edir.

Günel Məmmədovadan gələcək planları ilə də maraqlandıq.

– Elmin məhsuldar qüvvəyə çevrilməsi günün tələbidir, – deyir. Dövlətimiz bu məsələyə böyük diqqət yetirir. Hər bir alim apardığı tədqiqat işinin səmərəliliyini də bunda görür. Göstərilən etimad qarşısında çalışıram ki, apardığım tədqiqat işi Azərbaycan elminə fayda versin. Bacarığımı, təcrübəmi, biliyimi də işimə sərf edirəm.

Kimyaçı alimin uğurlu nailiyyətlərinin nəticələri ölkəmizin hüdudlarından kənarda, yüksək reytinqli beynəlxalq kodlu elmi jurnallarda işıq üzü görüb, xarici tədqiqatçılar tərəfindən əsərlərinə istinad olunub ki, bütün bunlar da milli elmimizin uğurlu nəticələrini dünyaya çatdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Günel Məmmədovanın elmi-tədqiqat işlərinin nəticəsi kimi müxtəlif illərdə Almaniyanın Saarbrüken şəhərində ingilis və rus dillərində monoqrafiya və kitabları nəşr edilib.

Onun elmi məqalələri ABŞ-da çapdan çıxan nüfuzlu "Glass Physics and Chemistry" ("Şüşənin fizikası və kimyası") jurnalında rus və ingilis dillərində, Moskva Dövlət Universitetinin "Xəbərlər" jurnalının Kimya bölməsində, Almaniyanın beynəlxalq "Springer" nəşriyyatı tərəfindən ingilis dilində nəşr edilib və onlayn satışa çıxarılıb.

Ümumilikdə, Günel Məmmədova 130-dan çox elmi əsərin, 3 monoqrafiyanın, 3 patentin müəllifidir.

Gənc tədqiqatçı elm sahəsində səmərəli nailiyyətlərinə görə 2010-cu ildə bölmə tərəfindən təbiət və texniki elmlər üzrə "İlin alimi", 2 fevral – Gənclər Günü Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən "İlin ən yaxşı gənc alimi" adlarına layiq görülüb. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən və Krasnodarda keçirilən beynəlxalq konfransda çıxışının yüksək elmi dərəcəsinə görə diplomla təltif edilib.

O, 2010-2019-cu illərdə Rusiyada, Amerika Birləşmiş Ştatlarında, İngiltərədə, Sinqapurda fəaliyyət göstərən beynəlxalq elmi jurnalların redaksiya heyətinə üzv seçilib.

Tədqiqatçı 2012-2013-cü illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun gənc alim və mütəxəssislərin I qrant müsabiqəsində "Naxçıvan Muxtar Respublikasının yeraltı sərvətlərindən yeni yüksək temperatura davamlı istilikizolyasiya materiallarının, seolitlərin alınma metodlarının işlənməsi" adlı qrant layihəsinin qalibi olub. Həmin layihə Elmin İnkişafı Fondunun uğurlu layihəsi kimi qiymətləndirilib.

Onun 2014-cü ildə 28 May – Respublika Günü münasibətilə gənc alimlər üçün AMEA Rəyasət Heyətinin keçirdiyi qrant müsabiqəsinə təqdim etdiyi elmi-tədqiqat işi 2-ci yerə layiq görülərək mükafatlandırılıb.

Gənc alim 2016-cı ildə Rusiya Federasiyasının Krasnoyarsk şəhərində fəaliyyət göstərən Elmi-innovasiya mərkəzi tərəfindən elmi tədqiqatların inkişafındakı roluna görə fəxri fərmanla təltif olunub. 2017-ci ildə Rusiya Federasiyasının Təbiətşünaslıq Akademiyasının professoru seçilib.

Azərbaycan Respublikası Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən keçirilən ixtiraçılıq sahəsində IV respublika müsabiqəsində "Tomsonit tipli seolitin alınma üsulu" patenti diplom və pul mükafatına layiq görülüb.

2018-ci ildə Çinin Hangzhou şəhərində keçirilən "Ətraf mühit və geoelm" beynəlxalq konfransının rəyçisi və Fransada fəaliyyət göstərən Beynəlxalq Seolit Assosiasiyasına üzv seçilib. Elə həmin ildə Patent və Əmtəə Nişanları Mərkəzi tərəfindən keçirilən ixtiraçılıq sahəsində V respublika müsabiqəsində yerli xammal əsasında etdiyi ixtiraları diplom və pul mükafatına layiq görülüb. Qeyd edək ki, ixtiralarda ilkin maddə kimi Naxçıvan Muxtar Respublikasında böyük yatağı olan dolomitdən və gil mineralı qalluazitdən istifadə olunub. Alınan seolit nümunələri də fiziki-kimyəvi analiz metodları ilə tədqiq edilib.

**Türkanə BƏYLƏRLİ**
***AMEA Naxçıvan Bölməsinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin əməkdaşı***

## Pensiyaçıların sosial müdafiəsi gücləndirilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən vətəndaşların pensiya təminatının təkmilləşdirilməsi və pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə mütəmadi olaraq tədbirlər görülür.*

Cari ilin fevral ayı ərzində müvafiq mərkəzi icra hakimiyyəti orqanları tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 8 milyon 3 min manat vəsait daxil olmuşdur. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 122 vətəndaşa əmək pensiyası təyin olunmuşdur ki, bunlardan 93-ü yaşa, 10-u əlilliyə, 19-u isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olmuşdur. Əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınması və sosial sığorta şəhadətnamələri ilə təmin olunması işi də diqqətdə saxlanılmışdır. Belə ki, yeni əmək fəaliyyətinə başlayanlara sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün 161 ədəd ərizə forması elektron imza vasitəsilə sifariş verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən bu ilin fevral ayında tarixi və əlamətdar, tanınmış şəxsiyyətlərin anım günləri və yubileyləri ilə əlaqədar tədbirlər, ustad və açıq dərslər keçilmiş, eləcə də "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilmiş müvafiq kitabların müzakirələri təşkil olunmuşdur.***

## Ötən ay muzeylərə 171 yeni eksponat daxil olub



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Gənclər Günü münasibətilə aid təşkilatlarla birgə keçirilən tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin ifasında Azərbaycan Respublikasının Xalq artisti Teymur Göyçayevin dirijorluğu ilə konsert proqramı təqdim edilmişdir. Ötən ay, həmçinin Naxçıvan Dövlət Filarmoniyasının Muğam Studiyası Kəngərli Rayon Mədəniyyət Sarayında, Mahnı və Rəqs Ansamblı isə Şərur Rayon Mədəniyyət Sarayında bilet satışı ilə konsert vermişdir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Naxçıvandan dünyaya" sosial çarx və qısa filmlər müsabiqəsinə fevral ayında yekun vurulmuş, qaliblər mükafatlandırılmışdır.

Hesabat dövründə muzeylərə 171 yeni eksponat daxil olmuşdur. Muzeylərimizi fevral ayında 32 min 844 tamaşaçı ziyarət etmişdir ki, onlardan 3 min 952-si əcnəbi, 28 min 892-si isə yerli vətəndaşlar olmuşdur. Ötən ay, həmçinin muxtar respublikanın kitabxanalarında yeni oxucu sayı 403, oxucu gəlişi 9 min 644 nəfər, kitab verilişi isə 46 min 768 nüsxə olmuşdur. Ay ərzində elektron kitabxanadan 366 oxucu istifadə etmişdir.

Ötən ay Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı yaradılmış "Əllə toxunmuş xalçaların reyestri sistemi"nə salınmaq üçün muzeylərə daxil olmuş 12 xalça pasportlaşdırılmışdır.

Fevral ayında Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilovun yeni işıq üzü görmüş "Azərbaycan xalq mahnıları – a capella" adlı kitabının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Dövlət Tarix Muzeyinin internet portalı və Dövlət Bayrağı Muzeyinin internet saytı ötən ay fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində naxçıvanlı şairə Qönçəbəyimin yaradıcılığına həsr olunmuş "Qönçəbəyim nəğməsi" adlı tədbir keçirilmiş, "Mən bu yurdun övladıyam" adlı rəsm müsabiqəsinin Kəngərli rayon turu olmuşdur.

Muxtar respublikanın yaşayış məntəqələrindəki klub müəssisələrində fəaliyyət göstərən musiqi və bədii-qiraət dərnəklərinin üzvləri, musiqi özfəaliyyət kollektivləri və rayon (şəhər) mədəniyyət şöbələrinin instrumental ansambllarının iştirakı ilə keçirilən "Səsin sehri, sözün sirri" müsabiqəsinin Naxçıvan şəhərində, eləcə də Şərur və Culfa rayonlarında seçim turları keçirilmişdir.

Fevral ayında "Dünya kinosu – kino dünyası" layihəsi çərçivəsində Naxçıvan Dövlət Film Fondunda, Şahbuz və Ordubad rayonlarında sakinlərə filmlər nümayiş olunmuşdur. Həmçinin Naxçıvan Dövlət Film Fondunda Naxçıvan şəhərindəki bir neçə tam orta məktəbin şagirdlərinə Xocalı faciəsi ilə əlaqədar film nümayiş etdirilmişdir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında ötən ay Nəbi Xəzrinin "Burla xatın" əsəri əsasında hazırlanan tamaşanın məşqləri davam etdirilmiş, Elçinin "Teleskop" əsəri əsasında hazırlanmış tamaşa teatrsevərlərə təqdim olunmuşdur. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında da ay ərzində Hüseyn Əsgərovun "Qorxaq Əhməd" tamaşasının məşqləri davam etdirilmiş, biri xeyriyyə məqsədli olmaqla, ümumilikdə, 9 tamaşa göstərilmişdir. Naxçıvan Dövlət Uşaq Teatrı tərəfindən ay ərzində "Mavi işıq" tamaşasının məşqləri aparılmış, Sədərək Rayon Mədəniyyət Sarayında "Siçanlar və pişiklər" tamaşası nümayiş etdirilmişdir. Fevral ayında Babək, Ordubad, Şərur, Naxçıvan şəhər və Şahbuz Rayon Xalq teatrları Cavad Məcnunbəyovun "İldırım", Firuz Mustafanın "Sevməsəm, ölləm", Əziz Nesinin "Öldürsənə, canciyər", Rauf İçərişəhərlinin "Arzum çin oldu", Sahib İbrahimlinin "Sadığın toyu" əsərləri əsasında hazırlanan tamaşaların məşqlərini davam etdirmişdir.

Fevral ayında Naxçıvan şəhərindəki Gənclər Mərkəzində "Lira" musiqili intellektual oyununun birinci mərhələsi keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Parlaq ulduzların müşahidəsi və tədqiqi həyata keçirilir



***AMEA Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanasında Günəş sisteminin cisimləri ilə bərabər, parlaq ulduzların müşahidəsi və tədqiqi də həyata keçirilir.***

Rəsədxanada ulduzların tədqiqatı sahəsində AMEA-nın Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının əməkdaşları ilə birgə cari ilin yay-payız mövsümündə geniş şəkildə müşahidələrin aparılması nəzərdə tutulub.

Hazırda tədqiq edilməsi planlaşdırılan parlaq ulduzlar seçilib və onların müşahidə olunması üçün hazırda nəzəri və metodik üsullar işlənir.

Müşahidələrin aparılmasında və tədqiqat işlərinin yerinə yetirilməsində Şamaxı Astrofizika Rəsədxanasının əməkdaşları ilə yanaşı, həm də Rusiya Federasiyasının Şimali Qafqazda yerləşən TERSKOL Rəsədxanasının nümayəndələrinin də iştirakı nəzərdə tutulub.

***AMEA Naxçıvan Bölməsinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Naxçıvan tənburu

***Haqqında söhbət açacağımız çox qədim musiqi aləti tənbur və ya şirud qopuzun bir növü olub, "qolça qopuz" adı ilə də tanınıb. "Dədə Qorqud" filmində həmin alətdən istifadə edilib. Mizrabla çalınan ən qədim musiqi alətlərindən biri olan tənbur bir sıra xalqlara məxsus alətdir. Əksər xalqlar tənburu əsrlərlə yaşatmış, inkişaf etdirmiş, xalq çalğı aləti kimi qorumuşdur. Hazırda tənbur Orta Asiya xalqları tərəfindən yaşadılaraq musiqi aləti kimi geniş miqyasda tədris olunur. Bu alət üçün xüsusi musiqilər yazılır, konsert proqramlarında ondan professional səviyyədə istifadə edilir.***

Tənbur armudvarı, kiçik, çanaqdan, uzun qoldan və bu qol üzərində bağlanmış 16-ya qədər pərdədən ibarətdir. Alətin simlərinin sayı növündən asılı olur.

Tənbur muğamların ən çox ifa edildiyi alət kimi hələ qədim zamanlardan şöhrət tapmışdır. Orta əsr musiqi alimi Dərviş Əli tənburu "bütün musiqi alətlərinin müəllimi" hesab etmişdir. Heç də təəccüblü deyil ki, Məhəmməd Füzuli "Yeddi cam" poemasında "Setar ilə söhbət" başlığında onu tənburdan fərqləndirməyərək deyir:

*Rəğbət elə tənbura, müğənni, gəl ürəkdən*
*Rəğbət açarı ilə ona da bir qapı aç sən.*
*Aç bir qapı ki, zahir olub nəşələr ondan,*
*Qəlblərə gülərək daima olar gül kimi xəndan.*
*Füzuli də tərk eyləyərək qorxmaz əzabdan,*
*Bu hali-büstadan qoparar nəşələr hər an.*

Tənburun Azərbaycan ərazisində çalınmasından və onun həmnövlərindən bəhs edən Əbdülqadir Marağayi aləti belə şərh edir: "Şirvanlılar tənburu o sazdır ki, təbrizlilər ondan çox istifadə edərlər. Onun quruluşu armud şəklində olub, səthi uzundur. Ona iki tək sim bağlanır. Simlərinin ahəngi tərəflərə nisbətən ətrafa daha geniş yayılır. Simlər hər biri digərindən aşağıda yerləşir".

Dövrümüzə kimi gəlib çıxmış tənbur növlərindən fərqli olaraq muxtar respublikada yaşayan, bir çox qədim alətlərə yenidən həyat verən İxtiyar Seyidov 1998-ci ildə Naxçıvan Dövlət Universitetində təhsil aldığı dövrdə "Türk dövlətləri birliyi" adlı simpoziuma simvolik olaraq Naxçıvan tənburu hazırlayıb təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 29 mart tarixli Sərəncamına əsasən həmin il bu təhsil ocağının yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur. Ali Məclisin Sədri qədim musiqi aləti olan Naxçıvan tənburunu Musiqi Kollecinə hədiyyə etmiş, kollecdə Azərbaycan xalq musiqisi sinfinin yaradılması, sinfin milli musiqi nəzəriyyəsinə aid ədəbiyyatlarla və xalq çalğı alətləri ilə zənginləşdirilməsi barədə tapşırıq vermişdir. İxtiyar Seyidovun bərpa etdiyi qopuz, rud, çəğanə, rübab kimi qədim musiqi alətləri də Naxçıvan Musiqi Kollecinə verilmiş, onların tədrisi uğurla həyata keçirilir.



*Tənbur*



*Saz*



*Çəng*

İxtiyar Seyidovun ixtira etdiyi alətin hər bir tərəfi bir musiqi aləti olan üçtərəfli tənbur gözəl səsə malik, uzunluğu 110, eni 12 santimetr, 30-a yaxın simi olan və mizrabla çalınan alət kimi formalaşmışdır.

Bir tərəfi – saz, digər tərəfi – tənbur, üçüncü tərəfi – çəng səsinə malik olan Naxçıvan tənburunun ixtiraçısı İxtiyar Seyidov alətin mənasını belə izah edir: "Bildiyimiz kimi, bütün türkdilli xalqlar arasında geniş yayılan bu alətlər, yəni saz, tənbur, çəng alətlərini mən birlik rəmzi kimi bir kök üstə, bir gövdə üzərində birləşdirdim və mənası da budur ki, bütün türkdilli xalqların başqa-başqa dövlətləri olsa da, kökləri birdir. Alətin aşıqlarının hər biri ayrı-ayrı simləri kökləyərək musiqi alətini rəmzi bir mənaya gətirib çıxarır".

Tənbur alətinə 3 tel bağlanır. Birinci tel kiçik oktavanın si bemol səsinə, orta – ikinci tel kiçik oktavanın mi bemol səsinə, üçüncü – yuxarıdakı tel isə birinci teldən 1 ton aşağı yəni, lya bemol səsinə köklənir. Amma istənilən vaxt orta telin səsini dəyişərək 1 ton yuxarı və aşağı istiqamətə kökləyərək ifa etmək olar. Əsasən, metal tellərə malik olan bu alət mizrabla ifa olunur.

İkinci tərəf saz aləti eynilə dövrümüzdə istifadə etdiyimiz saz kimi köklənir və mizrabla ifa olunur, 6 teldən ibarətdir.

Üçüncü tərəf isə çəng alətinin səsinə malik, 21 teldən ibarətdir. Köklənmə sistemi ikinci oktavanın do səsindən başlayaraq diatonik şəkildə üçüncü oktavaya qədər köklənir.

Naxçıvan tənburunun çanaq hissəsi, əsasən, tut ağacından, qol hissəsi cəviz, aşıqları isə armud ağaclarından hazırlanır. Tərəflərin üz hissəsinə isə 3 millimetr qalınlıqda deka yapışdırılır.

Mədəniyyət beşiyi sayılan ulu diyarımızda bu gün də qədim musiqi alətləri qorunub saxlanılır, təbliğ olunur, gənc nəslə aşılanır. Doğma yurdumuzda təşkil olunan el şənliklərində, müxtəlif festivallarda və digər tədbirlərdə qədim xalq çalğı alətlərinin də sədasını eşidir, milli musiqi mədəniyyətimizin zənginliyi ilə öyünürük.



Onu da qeyd edək ki, muxtar respublikamızda milli-mənəvi dəyərlərin yaşadılmasına, qiymətli mədəni irsimizin qorunmasına dövlət qayğısının bariz nümunəsi kimi ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvan Dövlət Filarmoniyasına qədim musiqi alətləri hədiyyə olunmuşdur. Avqustun 30-da hədiyyə edilmiş 18 adda, 20 sayda olan bu qədim musiqi alətləri içərisində bərbəd, kamanlı rübab, şirud tənbur, çoğur, bəm rübab, çəng, qabaq kaman, musiqar, ağız qopuzu, ovuc neyi dövrümüzdə ilk dəfə olaraq istifadə edilir. Naxçıvan Dövlət Filarmoniyasının nəzdində haqqında bəhs etdiyimiz hədiyyə olunmuş musiqi alətlərindən ibarət Xalq Çalğı Alətləri Orkestri formalaşmışdır. Orkestrin yaradılması qədim musiqi mədəniyyətimizi təbliğ edəcək peşəkar ifaçıların formalaşmasına, milli musiqimizdən ibarət konsert proqramlarının professional formada təqdim olunmasına xidmət edir. Türk xalqları birliyini tərənnüm edən Naxçıvan tənburu isə çox gözəl səsə malik bir musiqi aləti kimi xalqımız tərəfindən bundan sonra da seviləcək və onun səsi Azərbaycan xalqı durduqca hər zaman eşidiləcəkdir.

**Fətəli AXUNDZADƏ**
***Babək Rayon Mədəniyyət Şöbəsinin müdiri***

*Xalq təqvimi*

# Boz ay döl ayıdır

*Xalqımız qış dövrünü çillə adı ilə üç yerə bölmüşdür. Böyük çillə 40 gün (21 dekabr-30 yanvar), Kiçik çillə 20 gün (31 yanvar-20 fevral), Ala çillə və ya Ala çolpav (Boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) olur. Boz ayı "yazın qırxlı çağı" sayırlar. Xalq arasında Boz ay haqqında bir deyim var: "Boz ay bozara-bozara keçər". Bu daha çox Boz ayın sərtliyi və havaların bozarmasına işarədir. Xalq təqvimində Boz ay döl ayı kimi də tanınır. "Boz ayımız bozarsa da döl ayıdır ki, döl ayı", – deyimi bununla bağlıdır. Çünki heyvandarlıqda döl (heyvanların balalaması), əsasən, bu aydan başlayır.*



Məlum olduğu kimi, heyvanların çoxalması onlara yaxşı qulluqdan, habelə dölün düzgün təşkil edilməsindən çox asılıdır. Dölün uğurlu olması üçün xalq arasında bir sıra mərasimlər keçirilərdi: qovut hazırlayar, kətəməz və sulux bişirərdilər. Qonum-qonşuya bulama payı göndərərdilər. Onu da qeyd edək ki, bulama aparılan qabı boş qaytarmaz, içinə duz, şirniyyat qoyardılar. Gətirilmiş duzu doğmuş heyvanın qabağına tökmək kimi adət də vardır.

Qoyunlar quzulayanda uşaqların üzü gülər, bulaması sonbeşiklərin olar. Kənd-kəsəkdən süd qoxusu gələr, yağın, şorun, pendirin, ətin bol olması arzulanar. Bərəkət qoyun-quzu dırnağından başlayır, – deyib babalarımız.

Xalq arasında olan inama görə, heyvanların doğuşu ərəfəsində evdə soğan yandırmaq olmaz, əks halda bu, qoyunların bala salması ilə nəticələnə bilər. Artıb-çoxalmaq, bolluq, bərəkət rəmzi olaraq dölün düşdüyü yerə yumurta bişirib aparardılar. Bu ayla bağlı ata-babalarımız deyiblər: "Döl düşdü, bərəkətdən göl düşdü". Bir də belə vaxtda söyləyərlər ki, "quzuların səsindən qış səksənər, köynək-köynək ət tökər". "Döl başı" çobanların və sahibkarların xüsusi sevincinə səbəb olan bir bayram şənliyinə çevrilər. Bir vaxtlar quzu almaq böyük bayramla keçirilərdi. Bu münasibətlə təşkil olunan şənliyə yaxınlar, bəzən də bütün kənd dəvət olunardı. Çobanlara bu zaman "döl burnu" şirinliyi verərdilər. Buraya toplaşanlar sayaçı nəğmələri oxuyar, müxtəlif əyləncəli oyun nümayiş etdirərdilər. Xalq etiqadına görə, belə şənlik təşkil edilməzsə, onda döl bərəkətli olmaz. Tədqiqatçı alim Bəhmən Əliyev yazır ki, döl ərəfəsində qoyun sürüsü yanında qurddan, canavardan söhbət salmazdılar. Deyərdilər ki, qoyun qorxudan ölü quzu doğar.

Araşdırmalar nəticəsində məlum olur ki, bəhs olunan adət və ənənələr digər türk xalqlarında da mövcud olmuşdur. Belə ki, qaraçayların və balkarların inanclarında "Aymuş" deyə bir qoruyucu ruh vardır. İnanca görə, bu ruh kiçik baş heyvanları qoruyur. Kiçik quzulardan ilki dölün bərəkətli olması üçün "Aymuş"a qurban edilirdi. Sibirdə yaşayan türk xalqları artımın uğurlu, sürülərin sağlam olmasına həsr olmuş mərasim keçirərdilər. Bu zaman heyvanı obanın yanına gətirər və obanın qarşısına qoyulmuş maddələr yandırar, heyvanı onun başına üç dəfə dolandırardılar. Sonra müqəddəs bulağın (uduq arjanın) suyundan ağzına tökər, bu su ilə həm də başını, kürəyindən tutmuş ta quyruğuna kimi yuyardılar. Başını və ayaqlarını dağlayar və ardıc ağacının tüstüsünə verər, sonra qıldan hörülmüş boyunbağına (xaltasına) rəngli parça bağlayıb heyvanı yenə sürüyə buraxardılar.

Xalq arasında olan inama görə, payız yağıntılı olarsa və ya durnalar yazda gec gələrsə, döl uğurlu olar. Etnoqrafik çöl materiallarına görə, ilk doğulan quzunun ağ rəngli olması heyvandarların sevincinə səbəb olardı. İnama görə, ilk doğulan quzunun rəngi ağ olarsa, bu həmin ilin bolbərəkətli olacağına işarədir.

Dölçülər quzuları qardan gözləyərdilər, əgər quzuları birdən-birə qara çıxartsan, deyərlər: "Quzunu yelqursaq eləyərsən". Boz ayda arabir mal-qaranı örüşə çıxarardılar ki, heyvanın ağzı ota, dada çatsın. Elə ki, mal-qara Boz aydan salamat çıxdı, bundan sonra elat camaatı rahat nəfəs alardı.

Budur, bu Boz ay – döl ayı da kəndlərimizdə yaşayan və heyvandarlıqla məşğul olan insanların təsərrüfatlarına öz töhfəsini verməkdədir. İndi axurlar ağlı-qaralı, xallı quzularla dolub. Onlar analarına sığınaraq ağızlarının ota çatmasını "gözləyirlər". Quzunun ruzisi torpağın altındadır. Elə ki ilaxır tonqalları yandı, istisini havaya verdi, kəndlinin qayğısı azalır: qoyun-quzu öz dırnağı ilə ruzisini torpaqdan çıxarır.

**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

# Fevral ayında da idmançılarımız yüksək nəticələr əldə ediblər

Ötən ay 2 fevral – Gənclər Günü münasibətilə Naxçıvan Dövlət Musiqili Dram Teatrında konsert proqramı, Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən gənclərin mükafatlandırılması, yeniyetmələr arasında İntellektual Oyunlar Olimpiadasının Naxçıvan şəhər və Babək rayon mərhələləri, gənclərə "Fərdi inkişaf təlimi" adı altında "Özgüvənin həyatımızda rolu" mövzusunda seminar, gənclər arasında "Qış möcüzəsi" adlı fotomüsabiqə keçirilmişdir.



Gənclərin vətənpərvər ruhda tərbiyə olunması məqsədilə Xocalıda hər iki valideynini itirmiş 25 uşaq haqqında çəkilən "Böyüməyən uşaqlar" filmi, ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin "Welcome to Nakhchivan" adı altında Şərur rayonunda yerləşən muzeylərə ekskursiyası, Ağbulaq İstirahət Mərkəzində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün "Qış məktəbləri" təşkil olunmuşdur.

Fevral ayında "Yaradıcı Gənclər Akademiyası" adlı layihəyə start verilmiş, 2 fevral – Gənclər Günü münasibətilə yeniyetmə və gənclər arasında cüdo və boks üzrə Naxçıvan şəhər açıq birincilikləri, Naxçıvan Futzal Liqasında 14, 15, 16, və 17-ci turun oyunları, şahmat üzrə təsnifat turniri, Naxçıvan Muxtar Respublikasının 96-cı ildönümü münasibətilə Naxçıvan şəhər tam orta məktəblərinin qız komandaları arasında basketbol, "Şahmat beyinin gimnastikasıdır" devizi altında Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat birinciliyi təşkil olunmuşdur.

Sağlamlıq imkanları məhdud şəxslər arasında armrestlinq (qol güləşi) üzrə Naxçıvan Muxtar Respublika birinciliyi, karate-do idman növü üzrə oğlanlar və qızlar arasında Ordubad rayon açıq birinciliyi, Şahmat Mərkəzi açıq birinciliyi, "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında voleybol üzrə Şərur və Ordubad rayon komandaları arasında yoldaşlıq görüşü keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası XVIII Futbol Çempionatının II dövrə oyunları, futzal üzrə "Badamlı-Naxçıvan Kuboku"nda yarımfinal oyunları olmuş, Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr edilmiş Haçadağa yürüş olmuş, futbol hakimləri və məşqçi-müəllimlər üçün seminar keçirilmiş, muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları idmançılarının muzeylərə ekskursiyaları təmin olunmuşdur.

Fevral ayında da idmançılarımız yüksək nəticələr əldə edərək Azərbaycan birinciliklərində 17 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


**ŞƏRQ qapısı**

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 256